IQRO JURNALI , IQRO JOURNAL, ИКРО ЖУРНАЛИ
ISSN:2181-4341| wordlyknowledge.uz/index.php/iqro
Volume 24. Issue 02. Noyabr ,2026

TƏNQİDİ REALİZM ƏDƏBİ CƏRƏYANININ BƏDİİ ESTETİKASI

Ulduz Fərhad Qəhrəmanova
filologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
"Ədəbiyyat" kafedrasında dosent
ulduzkahraman1@gmail.com
ORCID: 0009-0003-4418-9319
https://doi.org/10.5281/zenodo.24208005

Annotasiya:

Tədqiqatçı məqalədə dünya ədəbiyyatı və Azərbaycan ədəbiyyatında tənqidi realizmi şərtləndirən cəhətləri nəzəri təhlil etmişdir. Elmi təhlillərdən məlum olur ki, dünya ədəbiyyatında tənqidi realizm burjuaziya sinfinin tənqidindən ibarətdir. Lakin Azərbaycan ədəbiyyatında tənqidi realizm Sovet dövrü ədəbiyyatının çiçəkləndiyi dövrlə üst-üstə düşdüyünə görə, ictimai yuxarıların tənqidinə həsr edilməsi fikrini tədqiqatçı qəbul etmir. Araşdırmaçıya görə, Azərbaycan ədəbiyyatında tənqidi realizm maarifçilik konsepsiyasına söykənərək inkişaf etmişdir. Nəinki Azərbaycan ədəbiyyatında, hətta dünya ədəbiyyatında tənqidi realizm maarifçilik konsepsiyasına söykənərək inkişaf edir, maarifçiliyin bitdiyi dövrdə yox, maarifçiliyin hökm sürdüyü dövrdə də buna söykənərək davam edib.

Açar sözlər: tənqidi realizm, maarifçilik konsepsiyası, sosialist realizmi

Abstrakt:

Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsi sosialist estetikasının çərçivəsində nəzəri təhlil olunaraq belə konsepsiyaya salınmışdır:

- Maarifçi dünyagörüşündən uzaqlaşdırılmağa çalışılmışdır. Halbuki müstəqillik dövrü təhlilləri açıq göstərir ki, maarifçi dünyagörüşü tənqidi realizmin müəllif dünyagörüşünü əks etdirir.
- Xəlqilik ilə sinfilik eyniləşdirilərək milli birliyin formalaşmasına maneçilik törədilməyə başlanılmışdır.

1905-1907- ci illər inqilabının təsirindən, şüurlarda başlayan inqilabla. Şüurlarda başlayan bu inqilab milli özünüdərkə köklənmişdir. Lakin sovet ədəbiyyatı sinfiliyi qabardaraq milli birliyin qarşısını almağa çalışmışdır.

Deməli, Dünya ədəbiyyatı tarixində tənqidi realizm ədəbi cərəyanı burjuaziya sinfinin tənqidi münasibəti ilə yaransa da, Azərbaycan Sovet ədəbiyyatı dövrünün təhlillərində sosialist metoda əsasən Azərbaycan ədəbiyyatındakı tənqidi realizm burjuaziya sinfininin, yəni ictimai yuxarıların tənqidinə tabe tutulurdu. Lakin müstəqillik dövrü ədəbiyyatının nəzəri təhlilləri bu fikri daramadağın etdi. Milli azərbaycançılıq məfkurəsinə tabe olan bu təhlillərddən məlum oldu ki, Azərbaycan ədəbiyyatında tənqidi realizm maarifçilik konsepsiyasına söykənərək inkişafını tapıb.

Açar sözlər: tənqidi realizm, maarifçilik konsepsiyası, sosialist realizmi

THE ARTISTIC AESTHETICS OF THE LITERARY MOVEMENT OF CRITICAL REALISM

Abstract:

In Azerbaijani literature, the phase of critical realism was theoretically analyzed within the framework of socialist aesthetics and framed according to the following concepts: An attempt was made to distance it from the Enlightenment worldview. However, analyses conducted during the independence era clearly demonstrate that the Enlightenment worldview actually reflects the perspective of the authors of critical realism. By equating the concept of "being of the people" (*xəlqilik*) with "class-based nature" (*sinfilik*), obstacles were created to the formation of national unity.

Under the influence of the 1905–1907 revolution, a revolution began within the collective consciousness—a revolution rooted in national self-awareness. Soviet literature, however, sought to hinder national unity by emphasizing class-based divisions. While the literary movement of critical realism—in the broader history of world literature—emerged through a critical stance toward the bourgeoisie, analyses of the Soviet-era Azerbaijani literary period (framed by the socialist method) interpreted critical realism in Azerbaijani literature specifically as a critique of the bourgeoisie—that is, the social elite. However, theoretical analyses of literature from the independence era have thoroughly dismantled this perspective. These analyses, grounded in the ideology of national "Azerbaijanism," reveal that critical realism in Azerbaijani literature actually developed based on the concept of the Enlightenment.

Keywords: critical realism, concept of the Enlightenment, socialist

Məlumdur ki, romantizm və tənqidi realizm ədəbi cərəyanları qarışıq dövrdə təşəkkül tapmışdı. Dünya ədəbi tarixinə nəzər salsaq görərik ki, bu ədəbi cərəyanlar ilk mənbəyini sentimentalizm ədəbi cərəyanından almışdır. Realizmin ən yüksək forması tənqidi realizm olmuşdur.

Dünya ədəbiyyatı tarixində naturalizm ədəbi cərəyanı ilə tənqidi realizm ədəbi cərəyanı bəzən eyniləşdirilirdi. Lakin naturalizm ədəbi cərəyanında tənqidi realizm ədəbi cərəyanından fərqli olaraq tipiklik, ümumiləşdirmə yoxdur. Naturalizm ədəbi cərəyanında ikinci dərəcəli hadisələr, lazımsız təfərrüatlar daha qabarıq şəkildə göstərilir. Həyatı necə varsa, bütün eybəcərlikləri ilə birlikdə, hissə qapılmadan, elmi dəqiqliklə təsvir etmək prinsipi naturalizmin başlıca tələblərindəndir.

Azərbaycan ədəbiyyatının Sovet dövrü təhlililləri̇ndə tənqidi realizm sosialist metod çərçivəsində nəzəri təhlilə cəlb edildi. Lakin bu günkü milli metodologiya ilə Azərbaycançılıq məfkurəsi ilə təhlilə cəlb edilən tənqidi realizmin maarifçiliyə əsaslandığı məlum olur. Deməli, əgər Sovet dövrü təhlillərində tənqidi realizmdə müəllif dünyagörüşü Sovet ideologiyasına söykənirdisə, müstəqillik dövrü Azərbaycan ədəbiyyyatındakı tənqidi realizmdə müəllif dünyagörüşü maarifçilik konsepsiyasından qidalandığı ədəbiyyatşünaslar tərəfindən təsdiq edildi.

Tənqiddi realistlər ədəbiyyatda xəlqiliyə xüsusi fikir verirdilər. Sovet dövrü ədəbiyyatında xəlqilik sinfilik kimi qələmə verilirdi. Yəni xəlqilik sinfiliyə tabe tutulurdu. Ona görə də sovet ədəbiyyatı xəlqilik adı altında insanları ictimai yuxarılar və ictimai aşağılar deyə qruplaşdırmışdır. Özü də ictimai aşağıların yanında dayanırdı.

Sinfilik insanların təbəqələrə bölünməsidir. Azərbaycan tarixində sinfilik Sovet dövründə daha çox qabardıldı. İnsanlar ictimai aşağılar və ictimai yuxarılar deyə təbəqələşdirildi. Sovet ədəbiyyatşünaslığında ictimai aşağılar zəhmətkeş kütlələr: fəhlələr, əkinçilər, kəndlilər və digərləri xalq adlanırdı. İctimai yuxarılar isə ağalar, bəylər, mülkədarlar, kapitalistlər (burjuaziya sinfi) idi. Sovet rejimi də ictimai aşağıların yanında dayanaraq aşağıları ictima yuxarılara qarşı qaldırırdı. **Sovet ədəbiyyatşünaslığı xalqın ancaq "ictimai aşağı" lardan ibarət olması fikrini məqsədli olaraq şüuraltına yeridirdi.** Sovet ədəbiyyatşünaslığı **"xalq" anlayışına sinfi məzmun** verməyə çalışırdı. Bu əslində sovet ədəbiyyatşünaslığının 1920-30-cu illərdə dövriyyəyə buraxdığı ədəbiyyat siyasətinin ifadəsi idi.

Sovet ədəbiyyatşünaslığı milli oyanış, milli özünüdərk, vətəndaşlıq məfhumlarına "sinfilik" donu geyindirmişdir. Sovet ədəbiyyatşünaslığında "xalq" obrazının məzmunu "ictimai aşağılar"a tabe tutulurdu. **Sovet ədəbiyyatşünaslığı "millət" yox, "xalq" anlayışını önə çəkirdi.** Çünki millət məfhumunu təşkil edən əlamətlərdən biri milli özünüdərkdir. Milli özünüdərk isə özünün bu və ya digər millətə mənsub olduğunu şüurlu olaraq anlamaqdır. Milli özünüdərk kökə qayıdışdır. Bu da Sovet imperiyasının tələblərinə cavab vermədiyi üçün keçmişə qayıdış edənlər "pantürkizm", "panislamizm" adı altında damğalanırdılar.

Tədqiqatçılar göstərmişdir ki, Sovet dövründə bu qaranlıq dünyadan çıxmağın yolunun açarı "Simurq quşu"nda idi. Bu "Simurq quşu" Sovet rejiminin simvolik obrazı idi. Ədəbiyyatşünasların Sovet rejiminə "Simurq quşu" statusunu verilməsi tədqiqat əsərində vurğulanmışdır. Keçmiş Sovet yazıçısının qələmində yalnız qaranlıq bir dünya kimi təsvir edilməli idi.

İstər dünya ədəbiyyatında, istər Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsi maarifçi dünyagörüşünün hələ də davam etdiyi bir dövrdə formalaşmağa başladı.

Azərbaycan ədəbiyyatında tənqidi realizm 1905-1907-ci illər inqilabının təsirilə formalaşmağa başladı. Azərbaycan ədəbiyyatında tənqidi realizmin estetik prinsipləri Sovet dövrü ədəbiyyatşünaslığının "estetik" prinsiplərinin təsiri altında formalaşmışdır.

XX əsr realizmi termini də əslində şərtidir, çünki XX əsr realizmi tənqidi realizmdən kənarda duran bir hadisə deyil, əksinə onun inkişaf mərhələlərindən biridir. **Azərbaycan ədəbiyyatında tənqidi realizm** XX əsrdə təşəkkül tapsa da, 1905-ci il inqilabının ictimai ideologiyada yaratdığı böyük çevrilişdən sonra yenə də **maarifçi realizmin zəminində formalaşır.** XX əsrin əvvəllərində (1900-1917) tənqidi realizm romantizmlə yanaşı "əməkdaşlıq şəraitində" inkişaf etdi.

Elm, təhsil, məktəb milli oyanışın, tərəqqinin, dirçəlişin hərkətverici qüvvəsidir. Milli tərəqqiyə gedən yol məktəbdən keçir. Təhsil, elm milli qurtuluş yoludur. Deməli, **tənqidi realizmdəki müəllif dünyagörüşü də maarifçilikdən qidalanırdı.** Yəni tənqidi realizm və romantizm yarananda Azərbaycan və dünya ədəbiyyatında maarifçilik dünyagörüşü davam etməkdə idi. Həm dünya ədəbiyyatında, həm də Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm ədəbi cərəyanları maarifçilikdən qidalanmışdır. Ona görə də deyə bilərik ki, **tənqidi realizm və romantizm ədəbi cərəyanındakı müəllif dünyagörüşü maarifçilikdən ibarətdir.**

Azərbaycan ədəbiyyatında tənqidi realizm 1905-1907-ci illər inqilabını yaratmışdır. XX əsr Azərbaycan tənqidi realizmin yeni bir mərhələsi olmaqla bərabər, həm də artıq bu

dövrdə təşəkkülə başlayan sosialist realizminin də ərəfəsidir. Yəni, XX əsr tənqidi realizmin "sosialist realizminin ərəfəsi"nin elan olunduğu əsrdir.

Azərbaycan ədəbiyyatında tənqidi realizm mərhələsi sosialist estetikasının çərçivəsində nəzəri təhlil olunaraq belə konsepsiyaya salınmışdır:

- Maarifçi dünyagörüşündən uzaqlaşdırılmağa çalışılmışdır. Halbuki müstəqillik dövrü təhlilləri açıq göstərir ki, maarifçi dünyagörüşü tənqidi realizmin müəllif dünyagörüşünü əks etdirir.
- Xəlqilik ilə sinfilik eyniləşdirilərək milli birliyin formalaşmasına maneçilik törədilməyə başlanılmışdır.

1905-1907- ci illər inqilabının təsirindən, şüurlarda başlayan inqilabla. Şüurlarda başlayan bu inqilab milli özünüdərkə köklənmişdir. Lakin sovet ədəbiyyatı sinfiliyi qabardaraq milli birliyin qarşısını almağa çalışmışdır.

Deməli, Dünya ədəbiyyatı tarixində tənqidi realizm ədəbi cərəyanı burjuaziya sinfinin tənqidi münasibəti ilə yaransa da, Azərbaycan Sovet ədəbiyyatı dövrünün təhlillərində sosialist metoda əsasən Azərbaycan ədəbiyyatındakı tənqidi realizm burjuaziya sinfininin, yəni ictimai yuxarıların tənqidinə tabe tutulurdu. Lakin müstəqillik dövrü ədəbiyyatının nəzəri təhlilləri bu fikri daramadağın etdi. Milli azərbaycançılıq məfkurəsinə tabe olan bu təhlillərddən məlum oldu ki, Azərbaycan ədəbiyyatında tənqidi realizm maarifçilik konsepsiyasına söykənərək inkişafını tapıb.

Azərbaycan ədəbiyyatında tənqidi realizm maarifçilik konsepsiyasına söykənərək inkişaf etmişdir. Nəinki Azərbaycan ədəbiyyatında, hətta dünya ədəbiyyatında tənqidi realizm burjuaziyanın tənqidinə yox, maarifçilik konsepsiyasına söykənərək inkişaf edir. Ona görə də deyə bilərik ki, tənqidi realizm maarifçiliyin bitdiyi dövrdən sonra yox, maarifçiliyin hökm sürdüyü dövrdə də buna söykənərək davam edib.

Ədəbiyyat:

1. Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı
2. Mir Cəlal, Pənah Xəlilov, (2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu
3. Məmməd Əliyev, (2012) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı
4. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
5. Məmmədli Qulam (2006), Mirzə Əli Möcüz, Seçilmiş əsərləri, Bakı, "Avrasiya press"
6. Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı
7. Rafiq Yusifoğlu, (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı
8. Təyyar Salamoğlu (2021), XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri , Bakı